Xalq qəzeti 2020.- 7 oktyabr.- S.9.



# Ordumuzun gücü xalqımızda qürur hissi doğurur

***Azərbaycan Ordusunun Suqovuşanda Azərbaycan bayrağını qaldırması, eləcə də Tərtər rayonunun Talış kəndini, Cəbrayıl şəhərini və rayonun bir neçə kəndini, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndini azad etməsi işğal altındakı bütün torpaqlarımızın – Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, həmçinin digər yurdlarımızın tezliklə son qarışına kimi azad olunacağına, bütün məcburi köçkünlərin dədə-baba ocaqlarına qayıdacaqlarına əminliyim daha da artdı.***

Erməni işğalçıları bu gün Azərbaycan Ordusunun ötən əsrin əvvəllərindəki ordu olmadığını görürlər. Lakin buna baxmayaraq, mənfur əməllərindən belə əl çəkmirlər, Azərbaycanın yaşayış məntəqələrini intensiv şəkildə atəşə tuturlar. Bu da işğalçı dövlətin beynəlxalq hüquq normalarına, habelə müharibə qaydalarına əməl etmədiyini göstərir. Ermənistanın mülki əhalini atəşə tutması, həm də onun terrorçu və anti-insani mahiyyətindən xəbər verir.

Ermənistan ordusunun dirəniş göstərib torpaqlarımızdan çıxmaq istəməməsi işğalçının sülhə nə qədər yad münasibət bəsləməsinin aydın təzahürüdür. Lakin bu, əbəsdir. Ermənistan, şübhə etmirəm ki, tezliklə məğlubiyyəti ilə barışacaq. Çünki bizim davamız dövlətimizin başçısının dediyi kimi, haqq davasıdır. Azərbaycan Ordusunun güc-qüdrətinin indiki səviyyəyə çatması da təsadüfi deyil. Bu barədə cənab İlham Əliyev xüsusi vurğulayıb: “Ordu quruculuğu mənim fəaliyyətimdə həmişə birinci yerdədir. Hərbçilər də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa, biz onu da edəcəyik. Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və döyüş tapşırığını şərəflə, vicdanla, cəsarətlə yerinə yetirir. Bu gün əks-hücum əməliyyatında bizim müxtəlif silahlı birləşmələrimiz iştirak edir və vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edilib. Əminəm ki, bu əks-hücum əməliyyatının bundan sonra da uğurlu nəticələri olacaqdır”.

Azərbaycan Ordusu Aprel döyüşlərində, 2018-ci ildə həyata keçirdiyi uğurlu Naxçıvan əməliyyatında olduğu kimi, indiki əks-hücumda da yüksək vətənpərvərlik nümayiş etdirir, əsgər və zabitlərimiz şücaət və qəhrəmanlıq salnaməsi yaradırlar. Xalqımız da hərbçilərimizin peşəkarlığına, ordumuzun gücünə güvənir.

**Anar MƏMMƏDOV,**
**Milli Məclisin deputatı**

* * *

Ermənistanın silahlı qüvvələrinin işğalçı ölkənin hərbi-siyasi rəhbərliyinin göstərişi ilə Azərbaycanın ikinci böyük şəhəri, qədim tarix və mədəniyyət mərkəzi olan Gəncəni ağır artilleriyadan atəşə tutması, şəhərdəki mülki obyektlərə, yaşayış binalarına, müxtəlif tikililərə, o cümlədən dövlət tərəfindən mühafizəyə götürülən tarixi abidələrə ciddi ziyan dəyməsi vandalizm siyasətinin təsdiqidir.

İşğalçı ermənilər unutmasınlar ki, kənd və şəhərlərimizi atəşə tutsalar da, mülki əhalini hədəfə alsalar da, bir qarış da belə olsa, ərazimizi ələ keçirə bilməzlər. Onlar bu cür xislətlərini dəfələrlə nümayiş etdirərək, vandalizmə, necə deyərlər, sadiq qaldıqlarını bütün dünyaya göstəriblər. Amma faşist əməllərindən yenə də çəkinməyərək, beynəlxalq hüquq normalarına zidd bəyanatlar səsləndirməkdə davam edirlər.

Gəncəni belə təxribatla qorxutmaq mümkün deyil. Dağıntılar və insan tələfatı olsa da, şəhərdə hər kəs öz sabit həyatını yaşayır. Xalqımız öz Ali Baş Komandanına, rəşadətli və mərd ordusuna inanır. Cəbhədən gələn hər qələbə müjdəli xoş xəbər insanları daha inamlı, daha da mübariz edir. Biz hər zaman ordumuzun, əsgərlərimizin yanındayıq. Ali Baş Komandanın hər bir əmrinə hazırıq.

**Azər VERDİYEV,**
**politoloq**

* * *

Artıq neçə gündür ki, Azərbaycan Ordusu düşmənə öz gücünü, qüdrətini göstərərək, müqəddəs torpaqlarımız, Vətənimiz və xalqımız uğrunda mübarizəni davam etdirir. Ordumuz qarşısında tab gətirə bilməyən ermənilər hərbi maşınlarını, silah-sursatlarını, hətta bayraqlarını da döyüş meydanında qoyub qaçırlar. Hazırda bütün qabaqcıl və güclü dövlətlərin diqqəti Azərbaycanda gedən haqq mübarizəsinə yönəlib, ancaq təəssüf ki, qələbələrimiz onların çoxunun ürəyincə deyil. Haqq işi uğrunda mübarizəyə qalxmış Azərbaycan öz əzmini dəyişmək fikrindən də dönən deyil. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Əl-Cəzairə” televiziya kanalına verdiyi müsahibə dövlətimizin başçısının öz siyasətində və bugünkü mövqeyində dönməz olduğunu bir daha nümayiş etdirir. Ölkəmizin rəhbəri bizi döyüşləri dayandırmağa, yenidən mənasız sülh danışıqlarına cəlb etməyə çalışan dövlətlərə üz tutaraq bildirib ki, qoy Paşinyan etiraf etsin ki, Qarabağ Azərbaycandır. Bundan sonra bizim şərtlərimizlə döyüşləri dayandırmaq mümkündür.

**Rahib Abbasov,**
**Rusiya Təbiətşünaslıq Akademiyasının professoru**

***V.BAYRAMOV,***
***“Xalq qəzeti”***